# MAZIMÇAY-KASMALA YATAQLARININ ƏMƏLƏ GƏLMƏSİNDƏ TFAN STRUKTUR FORMASİYA ZONASININ ROLU

**H.A.VƏLİYEV*, A.Q.MƏMMƏDOVA****
*Mineral-Xammal Elmi Tədqiqatlar İnstitutu*, Bakı Dövlət Universiteti***
*mamedovaaygun@yahoo.com*

*Məqalədə-Jixix-Qızıldərə zonasında yerləşən Mazımçay-Kasmala yataqlarının mövqeyi onların qravitasion sahədə submeridional uzanmış lokal mənfi anomaliyalar şəklində özünü göstərən dik qırılıb-düşmə sistemləri ilə məhlul daşıyan mərkəzi bloka aid olması göstərilmişdir.*

Böyük Qafqazın əsas struktur elementi olan eyniadlı meqaantiklinorisi mürəkkəb tektono-maqmatik inkişaf yolları kecmişdir ki, bu da filizləşmənin müxtəlif sənaye-genetik tiplərinin əmələ gəlməsinə səbəb olmuşdur. Azərbaycan Respublikası ərazisində Böyük Qafqaz meqaantiklinorisinin terrigen süxur kompleksinin daha çox təmsil olunduğu formasiya zonalarında (Tfan, Sarıbaş, Duruca) yalnız müəyyən stratiqrafik səviyyələrə aid olaraq bir-biri ilə fəza-məkan əlaqəsi olan, əsasən stratiform tipli mis-pirrotin, mis-kolçedan, kolçedan və s. bu kimi filizlərin geniş yayılması məlumdur.

Böyük Qafqazın Cənub yamacı "Qara Şist" geosinklinal zonası en kəsiyində 3 struktur formasion zonalar mövcuddur (Xain, 1950, Şıxəlibəyli, 1956, Qurbanov, 1971). Şimal Tfan, Cənub Kaxetino-Vəndam və aralıq Zaqatala–Kovdağ, bütün məlum olan yataqlar Tfan zonasında cəmlənmişlər və həddən artıq qalxmış və ümumqafqaz istiqamətində uzanmış nəhəng qırışıqlıq strukturu kimi təsvir edilmişdir. Böyük Qafqaz meqaantiklinoriyanın cənub qanadını və nüvəsini əhatə edir. Tfan zonası en kəsiyində iki tektonik pilləyə ayrılır: Şimal (Jixix-Qızıldərə) və Cənub (Filizçay-Katex) (Əliyev, 1972, 1981), (Vəliyev, 1981, 1983), filiz daşıyan zonalarının təbii sərhədlərinə uygun hüdudlanaraq quruluşları, maqmatizm xüsusiyyətləri, filiz tipləri, məkan daxilində filizləşmənin yayılması miqyası ilə fərqlənirlər.

Meqaantiklinorinin şimal pilləsi, şimal və cənub dərinlik mənşəli qırılmalarla (Baş Qafqaz, Köhnəmədən) həddən artıq uzanan əzilmə-doğranma zonasından ibarət olmaqla, aspid və flişoid qatları (3.5-4 km) (Jpl al), qırılma zonasının aralıq hissəsində cənub istiqamətdə cevrilmiş kulis qırışıqlarla səciyyələnir (Suayırıcı, Jixix, Cuqak).

Cənub pillə, cənubdan Malkamud qırılması ilə sərhədlənərək aspid-terrigen cöküntülərindən təşkil olaraq, az miqdarda ($J_2Al_2$) qumdaşı flişoid müəyyən rol oynayır ki, öz növbəsində onlar (blok-antiklinallarla sandıqvari, xətti) qırışıqlara kecərək, enli tağvari olmaqları ilə səciyyələnirlər.

Zonanın tektonik-maqmatik inkişaf xüsusiyyətləri, tektonik pillələrin metallogenetik spesifikasını təyin edir; şimal pilləni nəhəng əzilmə-doğranma zonası kimi təsvir edirlər, burada yalnız mis-pirrotin yataqları formalaşır (lokallaşır) (Jixix,

Kaşdağ, Kasmala, Mazımçay), cənub pilləsi isə – kolçedan-polimetal filizləri (Filizçay, Katex Mazımçay, Gumbulçay, Çeder) öz növbəsində burada açıq-aydın müşahidə edilən zonallıq əmələ gəlir.

Rayonun əksər qırılma pozulmaları filizləşmə izləri daşıyır və müəyyən dərəcədə potensial filizlidir, lakin filiz konsentrasiyaları üç qalın (iri) əks fay üstəğəlmə ilə müşahidə edilir: onlardan ikisi tektonik pillə ilə məhdudlaşan (Jixix-Çuqak və Köhnəmədən) dərinlik mənşəli qırılma ilə təsvir edilir.

Uzununa uzanma strukturları boyu, yerləşdirici süxurlar şistləşmişlər, parçalanmışlar (doğranmışlar) və intensiv metasomatik dəyişilməyə (serpentinləşməyə, kvarslaşmaya, xloritləşməyə) məruz qalmışlar və xalkopirit-pirrotin və qalenit-sfalerit xalkopirit-pirit-pirrotin möhtəvili damarcıq tipli filizlərlə zənginləşmişlər (dolmuşlar).

Ən çox intensiv hidrotermal metamorfizm və sulfid minerallaşması əsas etibarilə əsasi turş tərkibli daykaların müəyyən konsentrasiyaları olan sahələrdə müşahidə edilir.

Filiz yerləşdirici strukturlar planda və kəsilişdə dəfələrlə təkrar olunan dirsəkvari əyilmələrlə, müxtəlif miqyaslı və konfiqurasiyalı laylaşma müstəviləri ilə müşayiət edilir.

Uzanma qırılmaları boyu müəyyən miqdarda sulfid minerallaşması daşımasna baxmayaraq, ən yüksək filizləşmə konsentrasiyaları əsas etibarilə eninə və uzununa strukturların qovuşma düyünlərində toplanırlar (cəmlənirlər).

İki qarşılıqlı perpendikulyar strukturların uzlaşması blok quruluşlu yataqların əmələ gəlmə şəraiti xüsusiyyətləri və filizləşmə miqyasları ilə səciyyələnir (səbəb olur). Artıq məkan daxili filizləşmə konsentrasiya düyünlərinin lokal en kəsikli dik sürüşmə, sürüşmüş fay sistemləri ilə məhdudlaşması müəyyən edilmişdir.

Filiz nəzarətedici kəsikli struktur rolu ikincidərəcəli üç en kəsikli bloklarda daha dolğun müşayiət edilir.

Şərq blokun cənub sonluğunda, Köhnəmədən dərinlik qırılması zonasında Kasdağ yatağının mədəni yerləşir.

Nəhayət, fleksuranın şərq en kəsiyində Köhnəmədən və Kasmala təzahürlərinin massiv filiz yataqları bir yerə toplanaraq, qalınlığı 45-50 m-ə çatan damarcıqlı-möhtəvili filiz oreolları ilə müşaiyət edilirlər.

Filizləşmənin ön miqyasında əsasi və turş dayka və ştokların olması mühüm rol oynayır. Az meylli və qabarıq müstəvili dayka təmaslarının olması bir çox linzavari yataqların əmələ gəlməsində ekran rolunu oynayır. Dik endokontaktların üst müstəvilərində damarcıqlı-damar filizləri əmələ gəlir. Dayka mühiti massiv filizlərin lokallaşması üçün əhəmiyyət kəsb etmir. Filiz damarları daykaların şistləşməsi dərəcəsindən asılı olaraq, bəzən sonuncuların bütün qalınlığını əhatə edərək, struktur faktoru kimi filizləşmənin yerlərində filizyerləşici qatda litoloji xüsusiyyətləri ilə uyğunlaşırlar.

Yataqların formalaşmasında (lokallaşmasında) struktur şəraitin analizi yataqları 3 qrupa ayırmağa imkan verir (Əliyev, 1981): Əzilmə-doğranma zona yataqlar – şimal tektonik pilləsi-mis-pirrotin filizləşmə tipi, bloklarda yerləşən yataqlar isə əzilmə-parçalanma doğranma zonalarında (sopryajennix zonax) pirrotin, kolçedan-polimetallik filizləşmə tipi: davamiyyətli qırılmalarla əlaqədar yataqlar-kolçedan-polimetallik tip filizləri ilə səciyyələnir.

Tfan struktur formasion zonasında yerləşən Jixix sahəsinin mövqeyi onun dik qırılıb- düşmə sistemləri və fayları ilə məhdudlaşmış şimal pillədə, mərkəzi nisbətən

qalxmış en kəsikli bloka aid olması ilə səciyyələnir. Maqnit və qravitasion sahələrində bu blok fundamentin qalxmış hissəsini və alp qırışıqlıq kompleksini özündə əks etdirən submeridional istiqamətdə uzanan lokal müsbət anomaliyalar formasında əks olunur.

Filiz sahələrinin, filiz nəzarət edən strukturları, üstəgəlmə və qırılıb-düşmə faylarının yayılma sistemləri təsvir edilmişdir: Suayırıcı, Jixix, Köhnəmədən (Kasmala) Mazımçay.

Onların en dairəsi boyu blokları ilə kəsilən düyünləri (qovuşma zonaları) Jixix və struktur daxili filiz yataqlarının əsas həcmini yerləşdirən blokdaxili strukturlarda kəsişən filizlə zəngin olan düyünlər təşkil edir.

## ƏDƏBİYYAT


1. Алиев Г.И., Велиев Г.А. Закономерности размещения медно-пирротинового оруденения Белокано-Закатальского района (Жихих-Чугакская зона) / Материалы научной конференции Азерб.ССР, Университета, 1972, с. 86-89.
2. Велиев Г.А. Условия локализации и вещественный состав медно-пирротиновых руд Жихихского рудного поля. Афтореферат канд. дис. Баку: 1985, 25 с.
3. Курбанов Н.К., Алиев Г.И., Велиев Г.А. Закономерности размещения и структурные условия локализации колчеданно-медно-пирротиновых месторождений Белокано-Закатальского рудного района. Труды ЦНИГРИ. М.: 1971, в. 99, с.170-179.


## УСЛОВИЯ ФОРМИРОВАНИЯ МАЗЫМЧАЙ-КАЦМАЛИНСКОЙ МЕСТОРОЖДЕНИЙ, РОЛЬ ТФАНСКОЙ СТРУКТУРНО-ФОРМАЦИОННОЙ ЗОНЫ


**Г.А.ВЕЛИЕВ, А.Г.МАМЕДОВА**


### РЕЗЮМЕ


Позиция Мазымчай-Кацмалинских месторождений в пределах Жихих-Кызылдаринской зоны предопределяется приуроченности его центральному блоку, ограниченному системами крутых сбросов, сбросо-сдвигов, выраженных в гравитационном поле локальной отрицательных аномалий субмеридионального простирания.


## THE ROLE OF TPHAN STRUCTURAL FORMATION ZONE IN THE FORMATION OF MAZIMCHAY-KACHMALIN DEPOSIT


**G.A.VALIYEV, A.G.MAMMADOVA**


### SUMMARY


The position of Mazimchay-Kachmalin deposit in the boundaries of Jikhikh-Gizildara zone is determined concerning its central block limited to systems of hard sediments, sediment movements expressed in a gravitational field of local negative anomalies in submeridional length.